

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 187 (21.339)

24 sentyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 23-də birinci iclası olub.

Prezident İlham Əliyev 2017-ci ildə Bakıda IV İslam Həmrəylik Oyunlarının keçiriləcəyini bildirərək bu Oyunların həm dünya, həm İslam aləmi üçün əhəmiyyətini qeyd edib. Bir neçə gün əvvəl Oyunların Təşkilat Komitəsinin yaradılması ilə bağlı Sərəncam imzaladığını deyən Prezident İlham Əliyev komitəyə rəhbərliyin Mehriban Əliyevaya həvalə olunduğunu bildirib.

Bu günə qədər keçirilən tədbirlərin ölkəmizin gücünü, təşkilatçılıq qabiliyyətini nümayiş etdirdiyini deyən Mehriban Əliyeva vurğulayıb ki, İslam Həmrəylik Oyunları müstəqil Azərbaycanın tarixinə növbəti qələbə kimi daxil olacaq.

Gənclər və idman naziri, Oyunların Təşkilat Komitəsinin üzvü Azad Rəhimov çıxışında birinci Avropa Oyunlarının yüksək səviyyədə keçdiyini, IV İslam Həmrəylik Oyunlarının da beynəlxalq standartlara uyğun şəkildə təşkil ediləcəyini, bunun üçün ölkəmizdə bütün imkanların olduğunu diqqətə çatdırıb.

İclasa yekun vuran Prezident İlham Əliyev Təşkilat Komitəsinin bütün vəzifələri uğurla icra edəcəyinə əminliyini bildirib.



## Ulu öndər Heydər Əliyev “Kitabi-Dədə Qorqud” dastanına böyük dəyər verib, onun təbliğini diqqət mərkəzində saxlayıb



*“Milli-mənəvi dəyərlərimizin yaşadılmasına daim əhəmiyyət verən ümummilli liderimiz Heydər Əliyev “Kitabi-Dədə Qorqud” dastanının öyrənilməsi, təbliği və dünyada tanıdılması sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirib. 1975-ci ildə məhz ulu öndərin tapşırığı ilə Azərbaycanın tanınmış sənət adamlarının iştirak etdiyi “Dədə Qorqud” bədii filmi çəkilib. 2000-ci ildə yenə də ulu öndərin fərmanı ilə “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyi dünya türkoloqlarının və türkdilli ölkə başçılarının iştirakı ilə yüksək səviyyədə qeyd edilib”.*

Bu fikirlər sentyabrın 22-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində “Heydər Əliyev lektoriyası”nın 67-ci məşğələsində səsləndirilib.

Məşğələni giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ulu öndər Heydər Əliyevin istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycanda milli dəyərlərin inkişaf etdirilməsi və beynəlxalq arenada təbliği sahəsində gördüyü genişmiqyaslı işlərdən ətraflı söhbət açıb.

“Ümummilli lider Heydər Əliyev və “Kitabi-Dədə Qorqud” dastanları” mövzusunda çıxış edən AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev bildirib ki, dahi rəhbər müstəqil Azərbaycana rəhbərliyi dövründə də “Kitabi-Dədə Qorqud”a böyük dəyər verib, onun təbliğini diqqət mərkəzində saxlayıb. Ümummilli liderin 1997-ci il aprelin 20-də imzaladığı Sərəncam əsasında “Kitabi-Dədə Qorqud”un 1300 illiyinin geniş şəkildə qeyd edilməsi üçün hərtərəfli tədbirlər həyata keçirilib, respublikamızda və bir sıra xarici ölkələrdə elmi konfranslar təşkil olunub. 1998-ci ildə YUNESKO-da beynəlxalq simpoziumun təşkili eposun dünya miqyasında təbliği işinə böyük töhfə verib. 2000-ci ildə ikicildlik “Kitabi-Dədə Qorqud” ensiklopediyası”nın nəşri də bu baxımdan böyük önəm daşıyır.

Vurğulanıb ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da “Kitabi-Dədə Qorqud”la əlaqədar çoxsaylı işlər görülüb və görülməkdədir. Hələ 1999-cu ildə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsinin ucaldılması təkcə xalqımızın müdriklik rəmzi olan bu böyük ozana deyil, bütövlükdə, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə ehtiramın ifadəsi kimi mühüm dəyərə malikdir. Müstəqillik dövrü Azərbaycan qorqudşünaslığında ortaya çıxmış mühüm əsərlər sırasında naxçıvanlı alimlərin tədqiqatları da özünəməxsus yer tutur.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” 20 fevral 2015-ci il tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda da sistemli işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təsdiq etdiyi Tədbirlər Planına əsasən, bu yubiley geniş şəkildə qeyd olunur. Keçirilən elmi konfranslar, kütləvi informasiya vasitələrində verilən müvafiq materiallar bu baxımdan təqdirəlayiqdir.

Məşğələyə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov məruzə ilə çıxış edib. Bildirilib ki, 28 avqust 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə meşə fondu ərazilərində qurumuş ağacların təmizlənməsi, yeni yaşıllıqların salınması, bitki və heyvanat aləminin qış aylarında qorunması üçün vaxtında müvafiq işlərin görülməsi sahəsində tapşırıqlar verilib.

Qeyd olunub ki, bu ilin payız mövsümündə həyata keçiriləcək əkin və əkin-bərpa, yaşıllaşdırma işlərinin mütəşəkkil keçirilməsi üçün sentyabr, oktyabr aylarında əkin aparılacaq ərazilərin sxem-planları hazırlanıb, ting ehtiyatı yaradılıb, torpaq hazırlığı işləri aparılıb, texnika, maşın və mexanizmlər saz vəziyyətə gətirilib.

Nazir bildirib ki, muxtar respublika ərazisində qış mövsümü sərt şaxtalarla müşayiət olunur. Bu isə, öz növbəsində, iqlim şəraiti haqqında vaxtında və dəqiq məlumatlara tələbatı artırır. Bu sahə ilə əlaqədar dövlət orqanlarının, vətəndaşların hidrometeoroloji, aqrometeoroloji məlumatlarla təmin edilməsi üçün nazirliyin Bioloji müxtəlifliyin qorunması və təbii sərvətlərdən istifadənin təşkili şöbəsi və Hidrometeorologiya İdarəsi tərəfindən zəruri tədbirlər həyata keçirilir, texniki avadanlıqlarla təchizat yaxşılaşdırılır.



Qış mövsümündə ərazilərin qarla örtülməsi heyvanat aləminin qida ehtiyatının azalmasına səbəb olur. Ona görə də hər il xüsusi mühafizə olunan təbiət ərazilərində və digər təbiət ərazilərində biotexniki tədbirlər həyata keçirilir. Bu ehtiyatların bir qismi nazirliyin təsərrüfat ərazilərindən toplanır və aidiyyəti idarələr tərəfindən tədarük edilir. Nazirliyin Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi və aidiyyəti xüsusi mühafizə statuslu idarələr vaxtında qida ehtiyatının yaradılması üçün tədbirlər görməli, daşdız ehtiyatı yaradılmalıdır. Bu tədbirlərin eyni zamanda yeni salınmış yaşıllıq sahələrində keçirilməsi diqqətdə saxlanılmalıdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeli müəssisələrinin rəhbərləri aid inzibati binalarda, meteoroloji stansiyalarda, gözətçi məntəqələrində qışa hazırlıqla bağlı zəruri tədbirlər həyata keçirməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Qurban bayramı qeyd olunacaqdır

***Müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir. Bu mənada Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir.***

Qurban bayramı muxtar respublikamızda hər il geniş qeyd edilir, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından qurbanlar kəsilərək paylanılır.

Sentyabrın 24-də Naxçıvan şəhərindəki Heydər, “Cümə”, “Pirqəmiş”, Kazım Qarabəkir Paşa məscidlərində, eləcə də bütün rayonlarda bayram namazı qılınacaq, qurban əti paylanılacaq, xalqımızın və dövlətimizin əmin-amanlığı, firavanlığı üçün dualar oxunacaqdır.

Bayram milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin ifadəsi kimi qeyd olunacaqdır.

Müqəddəs bayram günündə xəstələr, ahıllar da yaddan çıxarılmayacaqdır. Naxçıvan Hərbi Hospitalında, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri və Psixi Xəstəliklər dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə olunanlara, Naxçıvan şəhərində yaşayan tənha ahıllara, Naxçıvan Dövlət Universitetinin və “Naxçıvan” Universitetinin yataqxanalarında yaşayan tələbələrə, Şahbuz şəhərindəki Ahıllar evinin sakinlərinə də qurban əti paylanılacaqdır.

**“Şərq qapısı”**

## Ümumdünya Turizm Günü qeyd edilib

***Sentyabrın 23-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ümumdünya Turizm Günü münasibətilə tədbir keçirilmişdir.***



Tədbiri Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov açaraq demişdir ki, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qərarı ilə 1980-ci ildən etibarən hər il sentyabrın 27-si Ümumdünya Turizm Günü kimi qeyd olunur. Bildirilmişdir ki, ölkəmizdə aparılan uğurlu islahatlar, iqtisadiyyatın inkişafı turizm sahəsinin də hərtərəfli inkişafına təkan vermişdir. Bu gün Azərbaycan həm də dünyanın diqqətini böyük turizm potensialı olan bir ölkə kimi cəlb edir. Ölkədə turizm siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu sahənin inkişafını vacib istiqamətlərdən biri kimi daim diqqətdə saxlayır. Son illər ölkədə turizm sənayesində mövcud potensialın beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsində məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Ölkəmizin regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında yeni turizm obyektləri tikilir, mədəni-tarixi abidələr bərpa olunur, müasir mehmanxanalar inşa edilir. Hər il ənənəvi olaraq Bakıda Beynəlxalq Turizm və Səyahətlər Sərgisi təşkil olunur ki, qədim diyarımız Naxçıvan da burada təmsil olunur.

Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin əməkdaşı Elnarə Zeynalova “Naxçıvanın turizm potensialı” mövzusunda çıxış edərək bildirmişdir ki, muxtar respublikamızda müalicə, ekoturizm, kənd turizmi, dini turizm və digər turizm növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızda turizm sahəsində həyata keçirilən tədbirlər onun inkişafı üçün yeni perspektivlər açır.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Şəlalə” İnstrumental Ansamblı konsert proqramı ilə çıxış etmiş və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin ekspozisiyasına baxış olmuşdur.

Ümumdünya Turizm Günü münasibətilə muxtar respublikamızın rayonlarında da tədbirlər keçirilmişdir.

**Əli RZAYEV**

# Rza Talıbovun “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabının təqdimatı keçirilib

*Bakı Dövlət Universitetinin (BDU) Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun Azərbaycan və rus dillərində çapdan çıxmış “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabının təqdimat mərasimi keçirilib.*





Universitetdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə fakültənin dekanı, professor Zeynal Həsənalıyev altı bölmə, 27 yarımfəsildən ibarət olan 312 səhifəlik kitabın əhəmiyyətindən danışıb, onu ali məktəb tələbələri üçün faydalı dərslik kimi təqdim edib. Bildirilib ki, Asiya ölkələrinin dünya siyasətində və beynəlxalq münasibətlər sistemindəki yeri, mövqeyi və əhəmiyyəti təqdim olunan kitabda, eyni zamanda beynəlxalq münasibətlərin üzvi tərkib hissəsi olaraq Azərbaycan Respublikasının Asiya ölkələri ilə çoxsahəli əlaqələrinə də geniş yer ayrılıb.

Tədbirdə çıxış edən dosent Nərgiz Məmmədzadə bildirib ki, kitabda Çin Xalq Respublikasının dünya siyasətində mövqeyi, həmçinin Asiya ölkələri ilə əlaqələri, Azərbaycan-Çin əməkdaşlığı geniş və hərtərəfli tədqiq olunub ki, bu da tələbələr və bu sahədə araşdırma aparmaq niyyətində olan tədqiqatçılar üçün fundamental mənbə rolunu oynaya bilər.

Dosent Qurban Məmmədov kitabın digər bölmələrinə diqqət çəkib. Qeyd edilib ki, kitabın “Beynəlxalq münasibətlər və Yaponiya” bölməsi maraqlı mövzular üzrə təqdim olunur. Burada dünya siyasətinin cazibə qüvvəsi kimi xarakterizə edilən Yaponiyanın ABŞ, ÇXR, Rusiya və digər Cənub-Şərqi Asiya ölkələri ilə əlaqələrindən geniş söhbət açılır. Əsərin müəllifi Azərbaycan-Yaponiya əməkdaşlığı məsələlərinə də ətraflı nəzər salır, ölkəmizin Yaponiya ilə siyasi-diplomatik, təhsil, turizm, səhiyyə, idman, eləcə də mədəni və ədəbi əlaqələrindən ətraflı bəhs edir. Kitabın “Koreya Respublikası dünya siyasətində” adlanan xüsusi fəslində Koreya Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri, beynəlxalq təşkilatlardakı nüfuzu, dünya siyasətindəki mövqeyi, həmçinin Azərbaycanın bu ölkə ilə əlaqələri sistemli şəkildə təhlil olunur.

Dosent Kərəm Məmmədov bildirib ki, müəllif dünya siyasətində gedən proseslərin fonunda Sinqapur, Malayziya və Vyetnam kimi ölkələri siyasi-iqtisadi, eləcə də diplomatik və mədəni əlaqələr baxımından geniş təhlil edib. Qeyd olunan ölkələrin Azərbaycanla ikitərəfli və çoxsaxəli əməkdaşlıq məsələləri geniş araşdırmaya cəlb edilib.

BDU-nun Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor Ağalar Abbasbəyli müəllif tərəfindən Azərbaycan Respublikasının Çin, Yaponiya, Koreya, Sinqapur, Malayziya və Vyetnam kimi Asiya ölkələri ilə əməkdaşlığına xüsusi diqqət yetirilməsinin əsərin maraq doğuran cəhətlərindən birinə çevrildiyini diqqətə çatdırıb. Bildirilib ki, kitabda ayrıca yarımfəsillərdə ölkəmizin qarşılıqlı iqtisadi, siyasi, diplomatik, eləcə də mədəni və ədəbi əlaqələri elmi təhlil süzgəcindən keçirilib. Rza Talıbov Asiya ölkələrinin Azərbaycan Respublikası ilə əlaqələrindən bəhs edərkən bu istiqamətdə ölkəmizdə müstəqillik dövründə ardıcıl, məqsədyönlü şəkildə həyata keçirilən dövlət siyasətinin əhəmiyyətini geniş şərh edib. Kitabın mənbəşünaslıq bazası geniş və zəngindir.

Sonda çıxış edən müəllif Rza Talıbov kitabların davamının olacağını bildirib, çıxışlarda qaldırılan məsələləri gələcək araşdırmalarında nəzərə alacağını diqqətə çatdırıb.



*Naxçıvan Turizm İnformasiya Mərkəzi*

### *27 sentyabr Ümumdünya Turizm Günüdür*

# Naxçıvanın böyük turizm potensialı vardır

***1980-ci ildən BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş Assambleyasının qərarı ilə sentyabrın 27-si Ümumdünya Turizm Günü elan olunmuşdur. 2001-ci ildən etibarən Azərbaycanda da Ümumdünya Turizm Günü qeyd olunur.***

Ölkəmizdə turizmin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq ölkə turizminin əsaslı inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Məhz bu illərdə Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai əyləncə obyektləri inşa olunmuşdur. Ölkəmiz müstəqillik qazandıqdan sonra dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmış, 1999-cu ildə “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.

Ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də turizmin inkişafını ölkə iqtisadiyyatının vacib sahələrindən biri kimi daim diqqət mərkəzində saxlayır. Son illərdə ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanınması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən dövlət proqramlarının uğurlu icrası Azərbaycanı dünyada turizm ölkəsinə çevirmişdir. “Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı”nın icrası turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsi, turizm sərvətlərindən səmərəli istifadə olunması, turizmin ölkə iqtisadiyyatının öncül istiqamətlərindən biri kimi tanıdılması baxımından əhəmiyyətli olmuşdur. 2011-ci ilin “Turizm ili” elan edilməsi isə Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin daha bir ifadəsi olmuşdur.



*Duzdağ oteli*

***“Ölkəmizin dayanıqlı inkişafı üçün gəlir gətirən sahələr inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Turizmin inkişafı üçün birinci şərt ölkədə beynəlxalq irimiqyaslı tədbirlərin keçirilməsidirsə, ikinci şərt ölkədə infrastrukturun inkişaf etdirilməsidir”***, – deyən ölkə başçısının rəhbərliyi ilə son illər Azərbaycanın bütün regionlarında yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır. Hazırda icrası uğurla davam etdirilən “2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı” turizm-kurort sahələrinin inkişafına hesablanmış mühüm addımdır. Bu il Bakıda keçirilən I Avropa Oyunları ölkəmizin müasir inkişafını və təbii gözəlliklərini, xalqımızın qonaqpərvərliyini, tolerantlığını, qədim mədəniyyətini və tarixini təbliğ etmək və tanıtmaq baxımından əhəmiyyətli olmuşdur.

Naxçıvan Muxtar Respublikasının da geniş turizm potensialı vardır. 250-dən çox mineral və müalicə əhəmiyyətli su mənbələrinin mövcudluğu, zəngin mətbəxi, qədim tarixi və mədəniyyəti Naxçıvanda turizmin inkişafı üçün geniş perspektivlər açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizm sahəsinin də inkişafına təsir etmiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır. Hazırda muxtar respublikada turizm fəaliyyətinə lisenziya almış 3 fiziki və 2 hüquqi şəxs, 21 mehmanxana və mehmanxanatipli müəssisə, Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincə qalası, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat turizm marşrutları fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür”.***



*Ağbulaq İstirahət Mərkəzi*

Qədim diyarımızın bütün bölgələrini əhatə edən müasir infrastrukturun qurulması, istirahət və əyləncə mərkəzlərinin yaradılması, tarixi-mədəni irsə qayğı, yaşayış məntəqələrinin abadlaşdırılması, enerji, nəqliyyat, rabitə xidmətinin yüksəldilməsi muxtar respublikada kənd və ekoturizmin inkişafını şərtləndirir. Bu gün Naxçıvan kəndləri təmiz havası, saf suyu və ekoloji təmiz məhsulları, əlverişli iqlim şəraiti, abad yol və müasir rabitə xidməti ilə turizmin inkişafı üçün böyük imkanlar açır. 2013-cü ildə Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Muxtar respublikada müalicə turizminin inkişafı üçün də geniş imkanlar vardır. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılmışdır. Buraya hər il müxtəlif ölkələrdən yüzlərlə insanın müalicəyə gəlməsi həm də onun turizm əhəmiyyətini artırır. Darıdağ Balneoloji Müalicəxanası da yüksək müalicə turizminə malikdir.

Turizmin inkişafı həm də bu sahədə ixtisaslı kadrların hazırlanmasını tələb edir. Muxtar respublikada bu sahənin peşəkar kadrlarla təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Bu gün Naxçıvan Dövlət Universitetində və “Naxçıvan” Universitetində turizm ixtisası üzrə kadrlar hazırlanır. Həmçinin Naxçıvan Muxtar Respublikası beynəlxalq və daxili turizm sərgilərində fəal iştirak edir. Bu il 42-dən çox ölkənin, 275-ə yaxın şirkətin iştirakı ilə Bakıda keçirilən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası 6 otel, 1 turizm müəssisəsi ilə təmsil olunmuşdur.

Muxtar respublikanı turizm cəhətdən cəlbedici edən amillərdən biri də burada mövcud olan minlərlə tarixi-mədəni abidələrdir. Bu abidələri görmək üçün hər il yüzlərlə turist muxtar respublikamıza üz tutur. Təbii ki, abidələrin qorunması, bərpası və təbliği sahəsində görülən işlər bu baxımdan əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq, muxtar respublika ərazisindəki 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Naxçıvanı dünyada tanıdan, yüksək turizm imkanlarına malik olan bu abidələrin bərpası diqqət mərkəzində saxlanılmış, yüzlərlə tarixi-mədəni abidəyə yeni həyat verilmişdir. Muxtar respublikadakı tarixi abidələr bura səfər edən alim, tədqiqatçı, jurnalist və turistlərin diqqətini cəlb edir, onlar ölkələrinə qayıtdıqdan sonra muxtar respublikanın zəngin mədəniyyəti, qədim tarixi və abidələri barədə yüzlərlə əsər, məqalə, reportajlar hazırlayıb dünya ictimaiyyətinə çatdırırlar.

Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilmişdir.

Turistlər həm də informasiya daşıyıcısıdır. Turist səfər etdiyi ölkənin təbiəti, şəfalı bulaqları, ləziz mətbəxi, tarixi və mədəniyyəti, qonaqpərvərliyi ilə bağlı məlumatları öz ölkəsinə aparır və təbliğ edir. 2012-ci ildə Naxçıvan şəhərindəki 17-ci əsrə aid Zaviyyə-Mədrəsə binası əsaslı təmir olunmuş və Naxçıvan Turizm İnformasiya Mərkəzi bu tarixi binada fəaliyyətə başlamışdır. Mərkəz öz fəaliyyətini turizm məlumat bankının hazırlanması, digər turizm informasiya mərkəzləri ilə işgüzar münasibətlərin yaradılması, buraya müraciət edənlərə otellər, tarixi və mədəniyyət abidələri, tur firmalar və bələdçilər haqqında məlumat verilməsi, həmçinin internet resurslarından səmərəli istifadə vasitəsilə muxtar respublikanın ilbəil inkişaf edən turizm potensialının təbliği istiqamətində qurmuşdur.

*Son illərdə muxtar respublikada digər sahələr kimi, turizmin inkişafı sahəsində görülən işlər də öz bəhrəsini verir. Ötən dövrdə ümumi turizm infrastrukturunun yaradılması, kənd, müalicə, ziyarət, tranzit və digər turizm növlərinə aid edilən nailiyyətlər gələcək turizm mövsümlərində daha böyük uğurlara imza atılmasına stimul verir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və digər aid qurumlar bu sahənin inkişafını bundan sonra da diqqət mərkəzində saxlayacaq, turizm potensialından səmərəli istifadə olunacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

***Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir. "Qurban" sözü lüğəti mənada "yaxınlaşmaq" deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanlar insanları xeyirxah əməllər ətrafında birləşdirir. Qurban bayramı eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin də bir hissəsidir. Bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. Üç səmavi dinin – İslam, Yəhudilik və Xristianlığın hər üçündə də müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman durur. Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir.***

# Mənəvi saflıq, mərhəmət və xeyirxahlıq bayramı

Yüksək insani keyfiyyətlərdən olan dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınmışdır. ***"Qurani-Kərim"in "Kövsər" surəsində deyilir:*** *"Rəbbin üçün namaz qıl və qurban kəs "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür", "Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər".* Bundan əlavə, Peyğəmbərimiz buyurmuşdur ki: *"Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir".*

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən islami dəyərlərin və bununla bağlı mədəniyyətin inkişafına misilsiz töhfələr vermişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir. Ümummilli liderimiz Heydər Əliyev dini-mədəni dəyərlərin qorunub yaşadılmasına daim yüksək qayğı göstərmişdir. İslam dininin saflığı, onun vacib əməllərinin yerinə yetirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Bütün bunların nəticəsidir ki, milli-mənəvi dəyərlərə və ənənələrə ehtiramla yanaşan Azərbaycanda Qurban bayramı hər il böyük təntənə ilə qeyd olunur. Ulu öndər bu müqəddəs bayramı yüksək qiymətləndirərək demişdir: ***"Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir".***

Milli-mənəvi, İslami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirmişdir. Dövlət başçısının Qurban bayramı münasibətilə bu il Azərbaycan xalqına təbrikində deyilir: ***"Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir. Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir".***

Ölkəmizdə rəsmi olaraq iki gün qeyd olunan bayramın özünəməxsus qurban kəsmək şərtləri vardır. Qurban ibadəti qurbanlıq heyvanın Qurban bayramı günlərində qayda-qanunlara uyğun şəkildə şəxsən qurban sahibinin özü tərəfindən kəsilməsi və ya başqasına kəsdirməsi ilə yerinə yetirilmiş olur. Qurban üzrlü səbəbdən bayram günü kəsilməzsə, bayramın ikinci, üçüncü günü də kəsilə bilər. Ancaq unutmayaq ki, bu ayini günün birinci yarısı, yəni gün dönməzdən əvvəl yerinə yetirmək lazımdır. Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib onun ətini imkansızlara, kasıblara paylamalıdır. Burada əsas məqsəd xeyirxahlığa nail olmaqdır.

İmkanı olmayan ailələrin qurban kəsməsi vacib deyil. Bu, yalnız buna imkanı olan adamların boynunda haqdır. Qurban əti satılmaz və ya satın alınmaz. Qurban yalnız paylanmaq üçün kəsilər ki, bu paylamanın da şərtləri vardır. Belə ki, kəsilmiş qurban üç yerə bölünür. Həmin üç hissənin biri ehtiyacı olan qonşulara, bir hissəsi qohum-əqrəbaya paylanılır, digər bir hissəsi isə evdə saxlanılır. Quşlardan və ov heyvanlarından qurban kəsmək doğru deyil. Qurban kəsmək ibadəti həm də insanlara sərvətini ehtiyacı olanlarla paylaşmaq əxlaqını qazandırır.

Qurban bayramının ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər. Ona görə də qurban kəsmək və onu paylamaq sosial bərabərliyə ən gözəl nümunələrdən biri hesab olunur.

Naxçıvan Muxtar Respublikasında da İslami dəyərlər qorunub yaşadılır, dini ənənələrə hörmət və ehtiramla yanaşılır. Son illər yeni məscid binaları tikilərək istifadəyə verilmiş, dini abidələr bərpa edilmiş, müqəddəs ziyarətgahlar təmir olunaraq əhalinin istifadəsinə verilmişdir. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin fəaliyyətinin genişləndirilməsi, din xadimlərinin qayğı ilə əhatə olunması bu dəyərlərə göstərilən yüksək ehtiramın bariz nümunəsidir.

Muxtar respublikada dini dəyərlərimizə dövlət qayğısının, ehtiramın daha bir ifadəsi də dini mərasimlərin yüksək səviyyədə keçirilməsidir. Hər il Məhəmməd Peyğəmbərin mövludu günü, müqəddəs Ramazan və Qurban bayramları muxtar respublikada təntənəli şəkildə qeyd olunur. Bu gün sabitlik, sülh və əmin-amanlıq şəraitində yaşayan hər bir ailədə, hər bir evdə müqəddəs bayramlar qeyd olunur, Qurban bayramı süfrəsi açılır. Qurban bayramı günlərində sosial qayğıya ehtiyacı olan ailələrin yad olunması, onlara bayram sovqatlarının verilməsi dinimizə olan böyük ehtiramın daha bir ifadəsidir.

Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır. Dinimizin təlqin etdiyi ədalət prinsipləri də Qurban bayramında özünü göstərir. Qurban bayramı insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı bizim hamımız – cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir. Məhz birliyimiz, həmrəyliyimiz düşmənlərimizi məğlubiyyətə uğradacaq, böyük qələbəmizi təmin edəcəkdir.

***Vüqar BABAYEV***
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

# "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı" mövzusunda açıq dərs



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Universiteti tələbələrinin iştirakı ilə açıq dərs keçilib.***

Açıq dərsi giriş sözü ilə mərkəzin elmi katibi Emin Məmmədov açaraq bildirib ki, Naxçıvanşünaslıq Mərkəzi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 17 fevral 2011-ci il tarixli Sərəncamı ilə yaradılıb. İstifadəyə verildiyi gündən mərkəzdə Naxçıvanın tarixi, ədəbiyyatı, görkəmli şəxsiyyətləri, iqtisadiyyatı və bir sıra əlamətdar günlərlə bağlı açıq dərslər təşkil olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 25 iyul 2015-ci il tarixli Sərəncamına əsasən, "Kitabi-Dədə Qorqudun alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Bu tədbirlər planında AMEA Naxçıvan Bölməsi və Naxçıvanşünaslıq Mərkəzi tərəfindən "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı" mövzusunda birgə açıq dərslərin keçilməsi nəzərdə tutulub. Naxçıvanşünaslıq Mərkəzində bu mövzuda açıq dərslər 2015-ci ilin dekabr ayına qədər davam etdiriləcək.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, bəşər sivilizasiyasına misilsiz töhfələr bəxş etmiş Azərbaycanımızın ən möhtəşəm ədəbi abidələri sırasında "Kitabi-Dədə Qorqud" eposu xüsusi yer tutur. Xalqımızın qədim adət-ənənələri, dünyagörüşü, yaşam tərzi, məişəti, zəngin mənəvi keyfiyyətləri, qəhrəmanlıq ruhu, mərdliyi, doğma torpağa bağlılığı, yurd sevgisi eposda mükəmməl şəkildə ifadə olunub. Bu qiymətli əsər həm mövzu, məzmun və ideyasına, həm də bədii məziyyətlərinə görə, bütövlükdə, dünya ədəbiyyatının nadir incilərindən biridir. Dastanla bağlı bir çox qiymətli tədqiqatlar aparılıb, dünya qorqudşünaslığı yüzlərlə kitab və məqalələrlə zənginləşdirilib.

Qeyd olunub ki, bu möhtəşəm eposa tədqiqatçılarla yanaşı, şair, yazıçı və dramaturqlar da müraciət edib, dastan əsasında çoxsaylı və müxtəlif janrlı bədii əsərlər qələmə alınıb. Bir sıra tədqiqatçıların fikrincə, dastanın yarandığı VII əsrə qədərki dövrdə, yaxud da boyların tam halda yazıya köçürüldüyü XVI əsrdə nə Qərbdə, nə də Şərqdə "Dədə Qorqud" səviyyəsində bədii nəsr nümunəsi olub.

"Kitabi-Dədə Qorqud" dastanlarında təsvir edilən bir sıra tarixi hadisələrin məhz Naxçıvan ərazisində baş verdiyini bildirən akademik vurğulayıb ki, oğuzların güclü bir qolu Azərbaycanın cənubunda, Naxçıvan, Urmiya regionlarında və Anadoluda məskunlaşıblar. Naxçıvan ərazisində mövcud olan qədim qəbir abidələri min illər boyu xalq arasında "oğuz qəbirləri" adlandırılıb. Bu abidələrə ən çox Naxçıvanın qala şəhərinin, Əlincəqala və Oğlanqalanın yerləşdiyi ərazilərdə rast gəlinir. "Kitabi-Dədə Qorqud" dastanlarında qeyd olunan bir sıra mühüm tarixi-coğrafi yer adları Naxçıvan diyarının ərazisinə aiddir. Naxçıvan ərazisində "Kitabi-Dədə Qorqud"da ifadə olunan çoxsaylı yer-yurd adlarının qeydə alınması bu regionun qədim Oğuz yurdu olduğunu bir daha təsdiqləyir. Çünki "Dədə Qorqud" toponimləri Qorqud atanın torpağa basılmış türk-oğuz möhürüdür. Bu mühüm elmi nəticə hələ də Naxçıvana ərazi iddiaları xülyası ilə yaşayan bədnam qonşularımıza çox tutarlı cavabdır.

Naxçıvan Muxtar Respublikasında "Kitabi-Dədə Qorqud"la səsləşən yer adları ilə bağlı onlarla əfsanə və rəvayətlərin də mövcud olduğunu diqqətə çatdıran İsmayıl Hacıyev bildirib ki, "Ağ qaya", "Qız-gəlin qayası", "Daşlaşan-heykəlləşən analar", "Yeddi bulaq (Yeddi bacı)", "Oğlanqala-Qızqala", "Adamyeyən Kəlləgöz qəhrəman", "Matı ilə ayının əfsanəsi" və başqa əfsanə və rəvayətlər "Dədə Qorqud"la səsləşir və bunlar təsadüfən yaranmayıb. "Kitabi-Dədə Qorqud" dastanlarında əksini tapan ictimai-siyasi hadisələr, əsasən, Azərbaycan ərazisində baş verib və bununla da, Azərbaycanın qədim oğuz türklərinin məskəni olduğunu bir daha təsdiq edir. Dastanlar oğuz türklərinin şəcərəsi, soykökü, onların həyat tərzi, məişəti, adət-ənənələri barədə məlumat verən elmi qaynaq, tarixi mənbədir.

Sonda tələbələri maraqlandıran suallara cavab verilib, açıq dərsin iştirakçıları Naxçıvanşünaslıq Mərkəzi ilə yaxından tanış olublar.

**✍ Arzu ABDULLAYEV**

***Ölkə başçısı cənab İlham Əliyevin 2 aprel 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da informasiya və kommunikasiya texnologiyaları respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "elektron hökumət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və dövlət-vətəndaş münasibətlərinin informasiya texnologiyaları vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir.***

# Dövlət Sosial Müdafiə Fondu tərəfindən yeni elektron xidmətlər istifadəyə verilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda 20 adda elektron xidmətin fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur. Elektron xidmətlərdən istifadə etmək üçün istifadəçilər Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalına ***(e-hokumet.nmr.az)*** və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun ***(www.dsmf.nakhchivan.az)*** internet səhifəsinə daxil olmaqla istifadə edə bilərlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunmuş, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılmış, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılmış və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri elektronlaşdırılmışdır. Bunun da nəticəsində vətəndaşlara, əmək pensiyaçılarına, sığortaedənlərə və sığortaolunanlara göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşdırılmışdır.

Müasir informasiya texnologiyalarından istifadə etməklə interaktiv və informativ elektron xidmətlər vasitəsilə əhalini maraqlandıran, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilməsi və əhalinin elektron xidmətlərə çıxış imkanlarının daha da genişləndirilməsi məqsədilə fond tərəfindən ardıcıl tədbirlər davam etdirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunmuş 20 elektron xidmətdən istifadəyə verilmiş 10 elektron xidmətin sayı 2015-ci ilin sentyabr ayından etibarən 13-ə çatdırılmışdır. Belə ki, "Sığortaedənin (hüquqi şəxs) onlayn uçota alınması", "Sığortaedənin (fiziki şəxs) onlayn uçota alınması" və "Dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsi üçün müraciətin qəbulu" adlı yeni istifadəyə verilmiş elektron xidmətlər vasitəsi ilə hüquqi şəxslərin (kommersiya hüquqi şəxsləri, xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialları istisna olmaqla), fiziki şəxslərin (fərdi sahibkarlar istisna olmaqla) uçotunu, eləcə də sosial sığorta şəhadətnaməsinin dublikatının verilməsini elektron qaydada həyata keçirmək mümkündür. Bu xidmətlərin tam elektronlaşdırılması həm kağız daşıyıcılarından istifadənin aradan qaldırılmasına, həm də şəffaflığın təmin olunmasına gətirib çıxaracaq.

"Sığortaedənin (hüquqi şəxs) onlayn uçota alınması" və "Sığortaedənin (fiziki şəxs) onlayn uçota alınması" xidmətlərindən elektron imza sahibləri istifadə edə bilərlər. Bu elektron xidmətlər vasitəsilə hüquqi şəxslərin (kommersiya hüquqi şəxsləri, xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialları istisna olmaqla), fiziki şəxslərin (fərdi sahibkarlar istisna olmaqla) uçotunu onlayn şəkildə aparmaq olar.

"Dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsi üçün müraciətin qəbulu" xidmətindən isə möhür hüququ olan elektron imza sahibləri istifadə edə bilərlər. Sığortaolunanın şəxsiyyətini təsdiq edən sənədində dəyişiklik edildikdə, dövlət sosial sığorta şəhadətnaməsinin itirilməsi, yazılan məlumatlarda yanlışlıq və yaxud səhv aşkar edilməsi, yararsız hala düşməsi və qanunvericilikdə nəzərdə tutulmuş digər hallar baş verdikdə sığortaedən bu xidmətdən rahat şəkildə istifadə etməklə yeni sosial sığorta şəhadətnaməsini əldə edə bilər.

Bu elektron xidmətlər də digər istifadəyə verilmiş xidmətlər kimi interaktiv və ödənişsizdir.

**İsmayıl HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri***

# Seçki marafonu

## 1 noyabr 2015-ci il Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür

Parlament seçkiləri - 2015

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

### Namizədin qeydə alınması

**Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 7 gün, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə isə 10 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.**

● Siyasi partiyanın, siyasi partiyalar blokunun irəli sürdüyü namizəd qeydə alındıqda müvafiq seçki komissiyası qeydiyyat barəsində qərarında namizədin müvafiq siyasi partiya, siyasi partiyalar bloku tərəfindən irəli sürüldüyünü göstərir. Qeydiyyat barədə və ya qeydiyyatdan imtina barəsində qərarda onun qəbul olunduğu tarix və vaxt göstərilir.

**Namizədin qeydə alınması barədə qərarın surəti müvafiq seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizəd irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməli, qeydiyyatdan imtina olunubsa, həm də bunun əsasları göstərilməlidir.**

***İmtina üçün aşağıdakılar əsas ola bilər:***

- imzaların toplanması zamanı Seçki Məcəlləsinin 57.1-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 53.1-ci maddəsinin tələblərinin pozulması;

- Seçki Məcəlləsinin 57-ci, 58-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 53-cü və 54-cü maddələrində göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;

- namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun Seçki Məcəlləsinin 57-ci, 58-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 53-cü və 54-cü maddələrinə uyğun təqdim etdikləri məlumatların düzgün olmaması (siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən irəli sürülən namizədlərə bu əsas o vaxt tətbiq edilə bilər ki, göstərilən düzgün olmayan məlumatlar namizədin təqsirindən buraxılsın);

**- namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması;**

- namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunun yaradılması qaydasının və müvafiq seçki fondunun vəsaitinin xərclənməsi qaydasının pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq olunsun);

- Seçki Məcəlləsinin 55-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 51-ci maddəsinin tələblərinin siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi, habelə siyasi partiya, siyasi partiyalar bloku və ya namizəd tərəfindən pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq edilsin – bu cür pozuntu digər məsuliyyətə səbəb olmursa);

- Seçki Məcəlləsinin 60.2-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 56.2-ci maddəsində göstərilən hallar qeydiyyatdan imtinaya dair qərarın çıxarılması üçün əsas götürüldükdə, qərar buraxılan səhvə (qüsura, pozuntuya) mütənasib olmalıdır;

- Seçki Məcəlləsinin 60.2.2 və 60.2.4-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 56.2.2 və 56.2.4-cü maddələrində göstərilən səbəblər olduqda səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd və ya siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsini 24 saat müddətində bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədi qeydə alır;

- namizədin hərəkətlərində cinayət məsuliyyətinə və ya inzibati məsuliyyətə səbəb olan hüquq pozuntusu əlamətləri aşkar edildikdə seçki komissiyası bu Məcəllənin pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları hüquq-mühafizə orqanlarına göndərir.

**Qeydə alınmış hər bir namizədə qeydiyyat vəsiqəsi verilir.**

Müvafiq seçki komissiyaları müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlər barədə məlumatları qeydiyyatdan sonra 24 saat müddətində kütləvi informasiya vasitələrinə təqdim edirlər. Seçki komissiyaları qeydə alınmış namizədlər barədə məlumatları Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə gününə ən azı 15 gün və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə ən azı 15 gün qalmış seçki komissiyasının otaqlarında, Seçki Məcəlləsinin 98.3-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 85.3-cü maddəsində nəzərdə tutulan məlumat lövhələrində yerləşdirirlər.

Namizədin qeydiyyatının ləğv edilməsi barədə məlumatlar da həmin qaydada yerləşdirilir.

Qeydə alınmış namizəd və onun səlahiyyətli nümayəndələri və yaxud onun vəkil edilmiş şəxsləri seçki komissiyalarının fəaliyyətini izləyə bilər:

- seçki komissiyasının iclaslarını;
- məntəqə və dairə seçki komissiyalarında seçki bülletenləri ilə işin aparılmasını;
- səsvermə üçün qeydiyyatdançıxma vəsiqələri ilə işin aparılmasını;
- səslərin hesablanmasını;
- səsvermənin nəticələri və yekunları haqqında protokollarla müvafiq işin aparılmasını;
- seçki komissiyalarında digər seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək;
- dairə və məntəqə seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçici siyahıları, səsvermə üçün qeydiyyatdançıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla ) surətlərini almaq.

**Seçici siyahıları, səsvermə üçün qeydiyyatdançıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələrinin surəti tələb oluna bilməz.**

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

## Məqsəd beynəlxalq yarışlarda Azərbaycan bayrağını dalğalandırmaqdır

*Gəncləri zərərli vərdişlərdən çəkindirmək, idman vasitəsilə onları sağlam ruhda tərbiyə etmək, idmanın kütləviləşdirilməsinə nail olmaq, peşəkar idmançıların uğurlu nəticə qazanmalarına kömək etmək – bütün bunlar müasir Azərbaycan idmanının yüksəlişinə səbəb olan addımlardır. Ümummilli lider Heydər Əliyevin dediyi kimi:* ***"Əgər biz hamımız idmanın inkişafına şərait yaratsaq, idmanı kütləvi etsək və bütün insanlar üçün bədən tərbiyəsini mütləq onların həyatının bir hissəsinə çevirsək, xalqımızın fiziki sağlamlığını, mənəvi sağlamlığını təmin edəcəyik".***



Bu gün Azərbaycanın hər yerində idmanın inkişafı üçün böyük işlər görülür. İdman infrastrukturunun yaradılmasını müasir dövrün tələbləri baxımından təxirəsalınmaz vəzifələrdən biri kimi müəyyənləşdirən muxtar respublika rəhbəri tez bir zamanda istedadlı idmançıların yetişməsi üçün geniş imkanlar yaradıb. Muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının qarşısına idmanın inkişafı, kütləviliyi üçün mühüm vəzifələr qoyulub. Bu gün Naxçıvanda fəaliyyət göstərən federasiyaların nəzdində yüzlərlə yeniyetmə və gənc müxtəlif idman növləri ilə məşğul olur. Belə federasiyalardan biri də Şərq Döyüşü Sənəti Federasiyasıdır. 2015-ci ilin ilk 8 ayında federasiya Gənclər və İdman Nazirliyi ilə birgə 20-yə yaxın yarış, turnir və seminarlar təşkil edib. Keçirilən tədbirlər barədə məlumat verən federasiyanın sədr müavini Cavanşir Salayev bildirdi ki, Naxçıvanda təşkil edilən bütün idman yarışları yüksək səviyyəsi, kütləviliyi ilə seçilir. Federasiya olaraq cari ilin ilk 8 ayında nazirliklə birgə bir çox tədbirlər keçirmişik. Məqsəd federasiyanın nəzdində olan bölmələrdəki uşaqların fiziki hazırlığını yoxlamaq, onların yarış təcrübəsini artırmaq və idmançıları respublika miqyaslı yarışlara hazırlamaqdır. Hazırda Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasında kikboksinq, MMA qaydasız döyüş növləri, taekvando, budo, uşu-sando döyüş idman növləri fəaliyyət göstərir. Hər idman növündə qruplar yaradılıb.

"Çox qısa zamanda həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız tədricən möhtəşəm qələbələrə imza atdılar, üçrəngli bayrağımızı beynəlxalq arenalarda dalğalandırmağa müvəffəq oldular", – deyən federasiyanın sədr müavini Cavanşir Salayev bu ilin ötən dövründə idmançıların daha çox beynəlxalq arenalarda uğur qazandığını dedi: "Fevral ayında İran İslam Respublikasının Urmiya şəhərində peşəkarlar arasında kikboksinq üzrə beynəlxalq yarış keçirildi. Bu yarışda muxtar respublika idmançısı Cavidan Rəcəbli 70 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək baş mükafatı qazandı. May ayının son günlərində isə federasiyanın yetirməsi İlkin Səfərov İtaliyada keçirilən uşu-sando üzrə dünya çempionatında fəxri kürsünün ən yüksək zirvəsini fəth etdi. Bu, 8 ayda idmançımızın yeganə uğuru olmadı. Belə ki, avqust ayında İlkin Səfərov İngiltərənin Norviç şəhərində keçirilən dünya çempionatını yenə qalib kimi başa vurdu. Beynəlxalq arenalarda uğurlarımız bununla kifayətlənmir. 18-22 iyun tarixlərində Rusiyanın Novorossiyski şəhərində budo üzrə dünya kuboku uğrunda yarışa yollanan 3 yetirməmiz vətənə medallarla qayıdıb. Onlardan biri qızıl, biri gümüş, biri isə bürünc medal əldə edib. Bir ay sonra isə Ukraynanın Odessa şəhərində keçirilən universal döyüş növləri üzrə Avropa çempionatında federasiyanın yetirməsi Xəyal Abdullayev ikinci yerə çıxıb".

Beynəlxalq yarışlarda qazanılan uğurların meyarı təbii ki, muxtar respublika daxilində mütəmadi olaraq təşkil edilən yarışlardır. Bu cür tədbirlər idmançıların yarış təcrübəsini artırmaqla yanaşı, həm də onlarda idmana olan marağı yüksəldir. Federasiyanın sədr müavini belə yarışları tez-tez təşkil etdiklərini bildirdi: "Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, federasiya mütəmadi olaraq yarışlar, turnirlər təşkil edir. 2015-ci ilin ilk 8 ayı ərzində nazirliklə birgə taekvando, kikboksinq, MMA qaydasız döyüş növləri üzrə muxtar respublika birincilikləri keçirilib. Bu yarışlarda 1000-ə yaxın yeniyetmə və gənc iştirak edib. Məlum olduğu kimi, federasiyanın rayon üzrə bölmələri də fəaliyyət göstərir. Rayonlarda da bu idman növlərinin kütləviliyi üçün yoldaşlıq görüşləri, turnirlər keçirilir. Həmçinin federasiyanın dəvət etdiyi məşqçilər tərəfindən seminarlar təşkil edilir".

"İdmançılarımız artıq respublika daxilində keçirilən yarışların əsas favoriti kimi göstərilir", – deyən Cavanşir Salayev ölkə birinciliyində qazanılan uğurlar haqda da məlumat verdi: "Aprel ayında kikboksinq üzrə Azərbaycan birinciliyi təşkil edildi və biz ölkə birinciliyində 1 gümüş, 2 bürünc medal qazandıq. Elə həmin ayın sonlarında Ağdam Olimpiya-İdman Kompleksində keçirilən MMA qaydasız döyüş növləri üzrə beynəlxalq turnirdə 2 idmançımız bürünc medal əldə etdi. Bizim üçün ən yaddaqalan turnir isə Şərur Olimpiya-İdman Kompleksində keçirilən peşəkarlar arasında kəmər çempionatı oldu. Ümummilli liderin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş çempionatın muxtar respublikada təşkil edilməsi Naxçıvanda yaradılan müasir idman infrastrukturunun nəticəsi, idmanın inkişafının bariz nümunəsidir".

**✍ Ceyhun MƏMMƏDOV**

***Muxtar respublikada ahıl insanlara diqqət və qayğı ilə yanaşılır, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.***

## Ahıllar evinin sakinlərinə tibbi xidmət göstərilib

Bu kateqoriyadan olan şəxslərə dövlət qayğısının daha bir ifadəsi isə onların sağlamlığının qorunması məqsədilə tibbi və sosial reabilitasiya xidmətinin göstərilməsidir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə bu istiqamətdə görülən tədbirlərin davamı kimi, Ahıllar evinin sakinlərinə növbəti tibbi xidmət göstərilib.

Nazirliyin nəzdində olan Tibbi Sosial Ekspert Komissiyasının nevropatoloq, cərrah, ortoped və Göz Xəstəxanasının oftalmoloq ixtisaslı həkimləri Ahıllar evində olublar. Həkimlər sakinləri tibbi yoxlamadan keçirib, onlara tibbi məsləhətlər veriblər.

Ahıllar göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

## Boksçumuz İtaliyada keçiriləcək təlim-məşq toplanışında iştirak edəcək

Naxçıvan boks tarixində ilkə imza atan və ilk dəfə Azərbaycanda keçirilən "Bakı-2015" Avropa Oyunlarının bürünc mükafatçısı Tayfur Əliyev yığma komandanın heyətində məşqlərini davam etdirir. Oktyabrda Qətərdə təşkil olunacaq dünya çempionatında iştirak edəcək boksçumuz hazırlıqlarına sentyabrın 1-dən start verib. Qarşıdakı dünya çempionatında 56 kiloqram çəki dərəcəsində rinqə çıxacaq Tayfur Əliyev sentyabrın 26-da millinin heyətində İtaliyaya gedəcək. İkihəftəlik təlim-məşq toplanışından sonra boksçumuz Qətərə yollanacaq. Qətərdə keçiriləcək dünya çempionatı böyük əhəmiyyət kəsb edir. Belə ki, bu çempionatda ilk 3 pilləni tutan idmançılar gələn il Braziliyanın Rio-de Janeyro şəhərində təşkil olunacaq Yay Olimpiya Oyunlarına birbaşa vəsiqə qazanacaqlar.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Məmmədov Kərəm Əli oğlunun adına olan 398[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Məmmədəliyev Həsən Zülfüqar oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 727